# SƏNƏD-İNFORMASİYA RESURSLARININ FORMALAŞMASINDA MİLLİ KİTABXANANIN ROLU

**Ulduz Manafova**

*BDU, Kitabxana resursları və informasiya-axtarış sistemləri kafedrasının müəllimi*

Respublikada fəaliyyət göstərən kitabxana-informasiya müəssisələri cəmiyyətdə sosial institut kimi həmişə fəaliyyət göstərdikləri sosial mühitlə bağlı formalaşır. Kitabxana-informasiya müəssisələrinin mahiyyətini dərk etmək, onun hazırda necə olduğunu və gələcəkdə hansı istiqamətdə inkişafını müəyyənləşdirmək üçün onu yaratmış olan cəmiyyətin tarixi, ictimai-siyasi mühiti ilə əlaqədar olaraq tətbiq edib öyrənmək daim araşdırma tələb edir. Tarixi inkişaf prosesində cəmiyyət həyatında baş verən dəyişikliklər, aparılan islahatlar kitabxana işində yeniləşməyə səbəb olduğundan kitabxana işinin məzmununda daim yeniləşmə prosesi gedir.

Tezisdə əsas tədqiqat obyekti olan Milli Kitabxananın fəaliyyəti işıqlandırılmışdır. Müasir dövrdə oxucuların sərbəst və məhdudiyyətsiz informasiya ilə təmin edilməsində, yeni kitabxana texnologiyalarının tətbiqində Milli Kitabxana mühüm rola malikdir.

2015-2019-cu illər üzrə Milli Kitabxananın elektron kataloq sistemində əks olunan ümumi sənəd-informasiya resurslarının statistik göstəriciləri

| İllər | Kitablar | Məqalələr | Kartoqrafik materiallar | Dövri mətbuat | Notlar | Əlyazma notlar | Biblioqrafik göstəricilər |
|---|---|---|---|---|---|---|---|
| 2019 | 2335 | 32739 | 1647 | 89 | 33 | 21 | 33 |
| 2018 | 4589 | 30237 | 303 | 22 | 25 | 10 | 49 |
| 2017 | 4724 | 27082 | 237 | 26 | 49 | 8 | 46 |
| 2016 | 5701 | 31842 | 493 | 23 | 26 | 5 | 47 |
| 2015 | 5846 | 31683 | 427 | 38 | 36 | 3 | 48 |

***Qeyd:*** *Cədvəldə əks olunan məlumatlar Milli Kitabxananın elektron bazası əsasında tərtib edilmişdir.*

Həmçinin qeyd edək ki, 2020-ci ildə Milli Kitabxananın fonduna müxtəlif mənbələrdən 13.435 nüsxə ədəbiyyat daxil olmuşdur. Yeni daxil olmuş ədəbiyyatın 6910 nüsxəsi kitab, 6525 nüsxəsi isə digər sənədlərdir. Daxil olmuş ədəbiyyatın 8501 nüsxəsi Azərbaycan, 3411 nüsxəsi rus, 1523 nüsxəsi isə digər dillərdədir. Kitabxana fondundan oxucular tərəfindən yararsız hala salınmış, köhnəlmiş, aktuallığını itirmiş, artıq nüsxə hesab edilən 10561 nüsxə ədəbiyyat silinmişdir. 2020-ci ildə Milli Kitabxananın fondu 4.619.345 nüsxə təşkil edir. Onlardan 2.392.563 nüsxə kitab və kitabçalar, 2.226.782 nüsxə isə digər sənədlərdir. 2020-ci ildə Milli Kitabxananın elektron məlumat bazasına 39234 tammətnli elektron resurs daxil olmuşdur. Bunlardan 10905 resurs kitab, dövri-mətbuat və dissertasiyaları, 28329 resurs isə tammətnli analitik biblioqrafik resursları əhatə edir. Hazırda kitabxananın elektron bazasında 1.292.289 resurs yerləşdirilmişdir. Ümumilikdə oxuculara yüksək səviyyədə xidmətin həyata keçirilməsində, kitabxanadaxili iş prosesinin müasir tələblər səviyyəsində qurulmasında və elektron xidmətin həyata keçirilməsində Milli Kitabxana mühüm rola malikdir.